***PSİXOLOGİYA***
***ПСИХОЛОГИЯ***
***PSYCHOLOGY***

*UOT159.9*

**_Mehriban Cəlal qızı İsmayılova_**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Pedaqoji psixologia kafedrasının dosenti,*
*psixologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-0649-4625*
https://doi.org/10.69682/arti.2024.91(4).135-139

# UNİVERSİTETİN TƏHSİL SİSTEMİNDƏ TƏLƏBƏNİN ÖZÜNÜNÜİDARƏSİNİN MODELLƏŞMƏSİ

**_Мехрибан Джалал гызы Исмайлова_**
*доцент кафедры Педагогической психологии Азербайджанского Государственного Педагогического Университета, доктор философии по психологии*

# МОДЕЛИРОВАНИЕ СТУДЕНЧЕСКОГО САМОУПРАВЛЕНИЯ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ ВУЗА

**_Mehriban Jalal Ismayilova_**
*associate professor at the department of Educational psychology of*
*Azerbaijan State Pedagogical University,*
*доктор философии по психологии*

# MODELING OF STUDENT SELF-MANAGEMENT IN THE UNIVERSITY EDUCATION SYSTEM

**Xülasə.** Universitetlərdə günün ən mühüm vəzifəsi dövlət idarəçiliyinin perspektivli formalarını ali təhsil praktikasına tətbiq etməkdir ki, onlardan biri də müəllim və tələbə özünüidarəsidir. Müasir reallıq gənclərin sosiallaşmasını, tələbələrdə özünütəhsil əsasında fəaliyyətin müxtəlif sahələrində öz münasibətlərini yaradıcı və fəal şəkildə qura bilən təşəbbüskar və müstəqil subyekt keyfiyyətlərinin inkişaf etdirilməsini tələb edir. Bu şəxsiyyət keyfiyyətləri səmərəli şəkildə tələbə həyatının idarəedilməsində, xüsusilə də tələbə özünüidarəsi prosesində formalaşır. Tələbə özünüidarəsi təhsil müəssisəsinin bacarıqlı və şüurlu vətəndaş cəmiyyətinin formalaşmasında şəxsiyyətin inkişaf və özünüdərk maraqları ilə dövlətin maraqlarını birləşdirməyə cəhddir. Məqalədə tələbələrin kollektiv özünüidarəetmə sisteminin sosial-pedaqoji və hüquqi əsasları araşdırılır, universitetdə ictimai fəaliyyət forması və tərbiyə işinin istiqaməti kimi tələbə özünüidarəsinin xüsusiyyətləri müəyyən edilir.
***Açar sözlər:*** *tələbə özünüidarəsi, tərbiyə formaları, özünüidarə modelləri, psixoloji dəstək, kollektivdə özünüidarəetmə sistemi, tərbiyə sisteminin modelləşdirilməsi*

**Аннотация.** Важнейшей задачей вузов на сегодняшний день является внедрение в практику высшего образования перспективных форм государственного управления, одной из которых является педагогическое и студенческое самоуправление. Современная действительность требует социализации молодежи, развития инициативных и самостоятельных субъектных качеств у студентов, способных творчески и активно выстраивать свои взаимоотношения в различных сферах деятельности на основе самообразования. Эти качества личности эффективно формируются при управлении студенческой жизнью, особенно в процессе студенческого самоуправления. Студенческое самоуправление – это попытка соединить интересы развития и самосознания личности с интересами государства в формировании компетентного и сознательного гражданского общества образовательного учреждения. В статье рассматриваются социально-педагогические и правовые основы системы коллективного само-

управления студентов, определяются особенности студенческого самоуправления как формы общественной деятельности и направления воспитательной работы в вузе.

***Ключевые слова:*** *студенческое самоуправление, формы воспитания, модели самоуправления, психологическое сопровождение, коллективная система самоуправления, моделирование воспитательной системы.*

**Abstract.** The most important task of universities today is the introduction into the practice of higher education of promising forms of public administration, one of which is pedagogical and student self-management. Modern reality requires the socialization of youth, the development of initiative and independent subjective qualities in students who are capable of creatively and actively building their relationships in various fields of activity on the basis of self-education. These personality qualities are effectively formed when managing student life, especially in the process of student self-government. Student self-government is an attempt to combine the interests of development and self-awareness of the individual with the interests of the state in the formation of a competent and conscious civil society of an educational institution. The article examines the socio-pedagogical and legal foundations of the system of collective self-management of students, defines the characteristics of student self-government as a form of social activity and direction of educational work at a university.

***Keywords:*** *student self-management, educational forms, self-management models, psychological support, collective self-management system, modeling of the educational system*

Tələbə özünüidarəsində iştirak xüsusi fəaliyyət növüdür ki, onun həyata keçirilməsində tələbələrin peşəkar, təşkilatçılıq, liderlik, yaradıcılıq qabiliyyətləri və şəxsi keyfiyyətləri təzahür edir və inkişaf etdirilir. Təhsil müəssisələrində tələbə özünüidarəsi dedikdə, qanunvericiliyə uyğun olaraq ilk növbədə, təhsil müəssisəsinin fəaliyyəti ilə bağlı məsələlərin müzakirəsində tədqiqata və dərsdənkənar işlərə nəzarət etmək başa düşülür.

Dövlət tərəfindən gənclərin, uşaq ictimai birliklərinin sosial əhəmiyyətli təşəbbüslərini dəstəkləmək cəhdlərinə baxmayaraq praktikada gəncləri ictimai maraqlar naminə səfərbər etmək, onların fəal iştirakının optimal formalarını təklif etmək həmişə mümkün olmur. Strateji baxımdan müasir gənclər siyasətinin bu xü-susiyyəti öz nəticələrini minimuma endirir [1]. Bu baxımdan sosial təcrübədə ali təhsil müəssisələrinin fəaliyyətində müasirliyə adekvat idarəetmə formalarının tətbiqinə tələbat yaranır.

Biz tələbə özünüidarəsini tələbələrin həyatında mühüm məsələlərin həllinə, onların sosial fəallığının inkişafına, təşəbbüslərinin dəstəklənməsinə yönəlmiş fəal, müstəqil ictimai fəaliyyətinin xüsusi forması hesab edirik. Tələbə özünüidarəsi də universitetlərdə təhsil formalarından biridir. Bu gün tələbə özünüidarəsi öz forma və məzmununa görə fərqlidir. Bunlara ictimai birliklər, həmkarlar ittifaqları, tələbə şuraları, assosiasiyalar və s. daxildir. Bu gün tələbələrin universitetlərdə özünüidarəetmənin optimal formalarını müstəqil seçmələri üçün hər cür imkanlar vardır.

Tələbə özünüidarəsinin müxtəlif daimi formalarının birləşməsi tələbələrin problemlərinin həlli yollarını, o cümlədən tələbələrin özlərinin səyləri ilə həll etməyə kömək edəcək, onların təşəbbüsünü təkcə auditoriya daxilində deyil, həm də auditoriyadankənar inkişaf etdirməyə imkan verəcəkdir ki, bu da tələbələrin fikir və rəylərinin, təşəbbüslərinin rolunu, əhəmiyyətini artıracaqdır. Tərbiyə işinin nəzəriyyə və praktikasında forma anlayışı ilə yanaşı model anlayışından da geniş istifadə olunur. Model, ilk növbədə, modelləşdirmənin məhsuludur, yəni modelləşdirmə obyekti (orijinal) və subyektin iştirak etdiyi prosesdir [3].

Tələbə özünüidarəsi həm simvolik, həm də şifahi model kimi təqdim oluna biləcəyini nəzərə alaraq real təcəssümü olan (struktur, məzmun, texnoloji, normativ) prinsipləri, dəyərləri və metodları təsvir edən modellərin qurulmasını tətbiq edir. Modelləşdirmə metodunun tətbiqində əsas yanaşmalara əsaslanaraq modelin qurulmasının əsas prinsiplərinə aşağıdakıları aid edirik: səviyyəli iyerarxiya prinsipi, modulluq, humanistləşdirmə prinsipi, fənlərarası və öz müqəddəratını təyinetmə prinsipi.

Tələbə özünüidarə modelində bu prinsiplərin həyata keçirilməsi tələbələr üçün öz imicini qurmaq, öz həyat trayektoriyasını tərtib etmək imkanı deməkdir və şəxsiyyətyönlü yanaşmanın fenomeni kimi etimadı təsdiqləyir. Aşkar

edilmiş və nəzəri cəhətdən təsvir edilən faktların hamısını tələbə özünüidarəsi modelinə daxil etmək olmaz. Bu onunla bağlıdır ki, model heç bir şəkildə onun təkrar istehsal etdiyi reallıqla tam eyni ola bilməz. Tələbə özünüidarəsinin innovativ modeli hazırlanarkən nəzərə alınmalıdır ki, model sosial fəaliyyət aktıdır, bu layihəni həyata keçirəcək həmin şəxslərin iştirakı olmadan bunu təsəvvür etmək mümkün deyil. Model tələbə özünüidarəetmə prosesi ilə təhsil prosesinin təşkili arasında əlaqəni nəzərə alaraq mümkün gələcək vəziyyətlərin qurulması və inkişafda alternativlərin tapılması üçün bir vasitədir.

İdarəetmə modelinin qurulması tələbə özünüidarəetmə fəaliyyətinə daxil olan subyektlər arasında bu fəaliyyətin əsas ideyaları əsasında yaranan əlaqələrin yaranmasından ibarətdir. İdarəetmə modeli dedikdə, biz tələbə özünüidarə sisteminin necə göründüyü və görünməli olduğu, idarəetmə obyektinə necə təsir etdiyi və necə təsir göstərməli olduğu, həmçinin onun necə uyğunlaşdığı və necə uyğunlaşacağı barədə nəzəri cəhətdən qurulmuş vahid fikirlər sistemini başa düşürük.

İdarə olunan təşkilatın məqsədlərinə çatması, davamlı inkişaf etməsi və həyat qabiliyyətini təmin etməsi üçün xarici mühitdə dəyişikliklər mütləqdir. Bu model idarəetmənin əsas prinsiplərini, strateji baxışı, məqsəd və vəzifələri, dəyərləri, onun elementlərinin qarşılıqlı əlaqəsinin strukturunu və qaydasını, analitik monitorinq və nəzarəti, inkişafın hərəkətverici qüvvələrini və motivasiya siyasətini özündə birləşdirir.

Universitet təcrübəsində tədris işinin çoxlu sayda müxtəlif forma və modelləri mövcuddur, bu da onların sistemləşdirilməsini və fərqləndirilməsini, o cümlədən tələbə özünüidarəsinin təşkili formalarını aktuallaşdırır. Tələbələrin özünüidarəsinin modelləşdirilməsi prosesində innovativ fəaliyyətin müxtəlif modelləri məsələn, gələcək layihənin əsasını təşkil edəcək maddi, idarəetmə, tənzimləyici modellər yaradıla bilər. Bir çox həyat hadisələrinin təbiətdə təsadüfi olduğunu nəzərə alaraq bəzi tədqiqatçılar ehtimal hadisələrinin qurulmasına əsaslanan model qurmağı, yəni stoxastik modelləşdirmədən istifadə etməyi məsləhət görürlər.

Modelin qurulması və tədqiqi zamanı alınan nəticələrin orijinala köçürül- məsinin mümkünlüyü modelin orijinalın müəyyən xüsusiyyətlərini əks etdirməsinə əsaslanır. Müvafiq bir modelin tətbiqinin vaxtında olması tələbə özünüidarəsinin ayrılmaz bir proses kimi inkişafında müəyyən mərhələnin vəzifələrinə bağlanmalıdır. Pedaqoji universitetdə tələbə özünüidarəsinin təşkilati formalarının inkişaf prosesinin modeli hazırlanmışdır ki, burada hər mərhələdə müəyyən bir nəticə əldə etmək üçün nəzərdə tutulmuş tələbə özünüidarəetmə təşkilatının formaları tələb olunur. Tələbələrin özünüidarəetmə ideyalarının pedaqoji universitetdə inteqral təhsil prosesinin tərkib hissəsi kimi həyata keçirilməsi məqsədyönlü, konkret pedaqoji prosesin təşkili ilə bağlıdır.

Onun mahiyyəti ondan ibarətdir ki, tələbə təşəbbüsünün yetkinləşməsi tədricən baş verir və yarandığı vaxtdan müvafiq ideyaların yaranmasına, onların qəbul edilməsinə, universitetin həyati məsələlərini idarə etmək səlahiyyətlərini həyata keçirməyə imkan verir. Bu şəraitdə pedaqoji idarəetmə və ya özünüidarənin inkişafına dəstək kollektivin öz müqəddəratını təyin etməsində və özünüinkişafında təşkilati, ideoloji və metodoloji təminatların yaradılması kimi mühüm rol oynayır. *Təşkilati təminatlar* özünüidarə orqanlarının fəaliyyətini, *ideoloji təminatlar* kollektivin həyatında bu orqanların hüquq və vəzifələrinin tanınmasını təmin edir, həvəskar özünüidarə orqanlarına təlimatlandırıcı köməklik prosesində *metodik təminatlar* həyata keçirilir.

Psixoloji dəstək konsepsiyası təlim və təhsil subyektləri arasında qarşılıqlı əlaqənin inkişaf etdirilməsi ideyalarını, əməkdaşlıq pedaqogikasının tərəfdarlarının fikirlərini, bütün yaş, sosial və peşə qruplarının nümayəndələri arasında məhsuldar ünsiyyətin zəruriliyi haqqında düşüncələri əks etdirir. İdarəetmə, liderlik, formalaşma anlayışlarında təcəssüm olunan sərt postulatlardan imtina etmək lazımdır, psixoloji dəstək nöqteyi-nəzərindən fərdin sosial müqəddəratını təyin etmək məqsədəuyğundur [2, s.93].

Tələbələrin özünüdərkinin amili kimi tələbə özünüidarəsinə psixoloji dəstək modeli üç mərhələdən ibarətdir: diaqnostik, sosial sınaq mərhələsi və əksetdirici. Bu zaman tələbəyə psixoloji dəstək onun şəxsi inkişafına kömək, onun empatik dərkinə münasibət, açıq ünsiyyət kimi qəbul edilir.

Bu model innovativ fəaliyyətin uğurla həyata keçirilməsi üçün müəllimin zəruri olan

peşə keyfiyyətlərini təkmilləşdirməyə yönəldilmişdir. Peşəkar inkişaf prosesi fərdi təhsil çatışmazlığının aradan qaldırılması, fərdi təhsil proqramlarının hazırlanması və həyata keçirilməsi yolu ilə həyata keçirilir. Tələbə özünüidarəsi şəraitində praktiki təhsil fəaliyyəti aktının bir xüsusiyyəti psixoloji dəstəyin müxtəlif formalarında əks olunan düzgün idarəetmə qərarlarının tapılmasında, onların imkanlarına münasibətdə müəllim tərəfindən tələbələrinə inam ifadəsidir.

Psixoloji dəstəyin modelləşdirilməsi üzrə nəzəri işin vəzifəsi tələbə özünüidarəsinin təşkilati formalarının inkişafı və təkmilləşdirilməsinin ən azı iki istiqaməti ilə bağlıdır. ***Birinci istiqamət*** mövcud təşkilati formalar çərçivəsində metodoloji prinsiplərin və idarəetmə texnologiyalarının yaradıcı inkişafını nəzərdə tutur. ***İkinci istiqamət*** yeni təşkilati formaların axtarışıdır. Məsələn, özünüidarəni qrupun iş növlərində deyil, tələbə dərnəkləri əsasında formalaşdırmaq olar ki, burada tələbələrin özləri fəal iştirakçılara çevrilirlər ki, bu da özünüidarəni inkişaf etdirmək və təkmilləşdirmək üçün səmərəli vasitə ola bilər.

Tədris prosesi üçün tələbə özünüidarəsinin təşkili formalarının daim təkmilləşdirilməsi və yenilənməsi vacibdir. Ən dəyərlisi odur ki, onlar tələbələrin təşəbbüsündən və ehtiyaclarından yaranır. Onlar həm də sosial praktikanın tələblərindən yaranmalı və sosialyönlü olmalıdırlar. Pedaqoji universitetdə tələbə özünüidarəsinin təşkili formalarından istifadə üçün onların həm məzmun, həm də texnologiya baxımından peşəyönümünün gücləndirilməsidir. Tələbələrin özünüidarəsinin inkişafı standartlaşdırma, universallaşdırma, diferensiallaşma və inteqrasiya funksiyalarına əsaslanır.

Fikrimizcə, tələbə özünüidarəetmə orqanlarının səmərəli sistemini yaratmaq üçün daim tələbə fəallarının maarifləndirilməsi və hazırlanması zəruridir. Bunun üçün lazımi biliklərə tam malik olan mentorlar kuratorlar, təşkilatçılıq, pedaqoji və psixoloji bacarıqlara malik təhsil strukturlarının nümayəndələri tələb olunur. Tələbə özünüidarəetmə sistemi tələbələrə universitetin idarə edilməsində və onların həyat fəaliyyətinin təşkilində fəal iştirak etməyə imkan verir.

Tələbə özünüidarəsinin strateji məqsədi dövlət idarəçiliyində iştirak etmək, sosial əhəmiyyətli qərarlar qəbul etmək və həyata keçirmək, müxtəlif dövlət idarəetmə orqanlarına seçmək və seçilmək hüququndan tam şəkildə istifadə etmək qabiliyyətinə malik vətəndaşın hazırlanmasıdır. Tələbə özünüidarəsi fəaliyyət növlərinin seçimini aktivləşdirir, tələbələri istənilən fəaliyyət növündə və ünsiyyətdə müstəqil olaraq səmərəli üslubu seçməyə, layihə və proqramların müəllifi və tərtibatçısına çevrilməyə sövq edir.

Bu şəraitdə tələbələr bioloji, şəxsi və sosial-psixoloji determinantlarda imkanların böyük qismindən daha səmərəli və şüurlu şəkildə istifadə edirlər ki, onların qarşılıqlı əlaqəsi tələbələrin müxtəlif sosial fəaliyyət növlərini təkcə genişləndirməyə deyil, həm də onları təkmilləşdirməyə imkan verir, fərdi xüsusiyyətləri və peşə seçimini nəzərə alır. Gələcək müəllimin sosial və peşə səriştəli şəxsiyyətinin formalaşdırılması probleminin həllində təkcə müəllimlərin fəaliyyəti deyil, həm də tələbələrin öz fəaliyyəti vacibdir. Universitetdə tələbə özünüidarəsinin inkişafı üçün şərtlər tələbə şəxsiyyətinin psixoloji dəstəyi, təhsil işinin peşəyönlü olması, ali təhsil müəssisəsindəki ənənəvi təhsil mühiti ilə tələbə fəaliyyətinin innovativ məzmun formaları arasında davamlılığın qorunmasıdır.

Bir sözlə, modelləşdirmənin sistemli nəticəsi kimi tələbə özünüidarəetmə modeli hədəf komponentində şəxsi, sosial və peşəyönlüdür, tələbə fəaliyyətinin müxtəlif növlərini, təhsil və kollektiv təşkilatlanma formalarını, idarəetmə modellərini və məzmunca psixoloji dəstəyi birləşdirir. Nəticə etibarilə o tələbələrdə konkret fənn və peşə fəaliyyətinə yiyələnmə ilə yanaşı, təşəbbüskarlıq, müstəqillik, liderlik qabiliyyəti, cəsarətlilik, xoşməramlılıq, yaradıcılıq, qətiyyətlilik kimi keyfiyyətləri inkişaf etdirir.

**Problemin aktuallığı.** Tələbə özünüidarəsi təhsil müəssisəsinin bacarıqlı və şüurlu vətəndaş cəmiyyətinin formalaşmasında şəxsiyyətin inkişaf və özünüdərk maraqları ilə dövlətin maraqlarını birləşdirməyə cəhddir. Tələbə özünüidarəsi fəaliyyət növlərinin seçimini aktivləşdirir, tələbələri istənilən fəaliyyət növündə və ünsiyyətdə müstəqil olaraq effektiv üslubu seçməyə, layihə və proqramların müəllifi və tərtibatçısına çevrilməyə sövq edir.

**Problemin elmi yeniliyi.** Məqalədə tələbələrin kollektiv özünüidarəetmə sisteminin sosial-pedaqoji və hüquqi əsasları araşdırılır, universitetdə ictimai fəaliyyət forması və tərbiyə işinin istiqaməti kimi tələbə özünüidarəsinin xüsusiyyətləri müəyyən edilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. Сырцова Е.Л. Студенческое самоуправление как фактор развития автономности студентов // Современные наукоемкие технологии. – 2007. № 7. - С. 77-79
2. Чистякова С.Н., Пряжников Н.С. Педагогическое сопровождение социально-профессионального самоопределения учащихся // Ученик в обновляющейся школе. Сборник научных трудов / Под ред. Ю.И. Дика, А.В. Хуторского. - М., 2002. – 488 с.
3. Шаламова, А. Студенческое самоуправление как фактор социальной активности молодежи //Высшее образование в России. - 2007.№8.- с.72–74.

**E-mail:** mehriban_ismayilova_1962@mail.ru
**Redaksiyaya daxil olub:** 24.06.2024